*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

https://doi.org/10.62837/2026.3.371

**ZƏHRA HEYDƏROVA SÜLEYMAN**
***Lənkəran Dövlət Universiteti***
***heyderova.zehra30@gmail.com***

# ELŞAD SƏFƏRLİNİN POEMALARININ İDEYA-MÖVZU PROBLEMLƏRİ

Xülasə

Məqalədə Elşad Səfərlinin poema yaradıcılığının ideya-mövzu problemləri araşdırılmışdır. Tədqiqat zamanı müəllifin müxtəlif dövrlərdə qələmə aldığı poemalar təhlil edilərək onların əsas ideya istiqamətləri müəyyənləşdirilmişdir. Əsərlərdə vətən sevgisi, milli ayrılıq, tarixi yaddaş, sosial ədalətsizlik, insan taleyi, mənəvi-psixoloji gərginlik və zamanın doğurduğu ictimai sarsıntılar aparıcı mövzular kimi diqqətə çatdırılmışdır.

Araşdırma göstərir ki, müəllif poema janrında lirizm və epik təsvir elementlərini üzvi şəkildə birləşdirərək fərdi taleləri ümummilli və ictimai problemlərlə vəhdətdə təqdim edir. Ayrılıq və məsafə anlayışları yalnız şəxsi hisslərin ifadəsi kimi deyil, həm də tarixi-milli faciələrin bədii simvolu kimi işlənir. Təbiət motivləri, simvolik obrazlar və emosional gərginlik poetik strukturun mühüm komponentləri kimi çıxış edir.

Nəticə etibarilə, Elşad Səfərlinin poemaları ideya zənginliyi, janr sintezi və sənətkarlıq xüsusiyyətləri baxımından müasir Azərbaycan poeziyasında əhəmiyyətli yer tutur və müəllifin yaradıcılıq istiqamətini səciyyələndirən əsas bədii göstəricilərdən biri kimi dəyərləndirilə bilər.

**Açar sözlər:** poema, vətən sevgisi, milli ayrılıq, tarixi yaddaş, insan taleyi, məsafə, Sergey Yesenin

Elşad Səfərlinin yaradıcılığında poema janrı xüsusi yer tutur və müəllif bu janr vasitəsilə həm fərdi insan talelərini, həm də cəmiyyətin ağrılı və taleyüklü problemlərini poetik düşüncə müstəvisində ümumiləşdirə bilmişdir. Onun poemalarında lirizm və epik təsvir elementləri bir-birini tamamlayaraq oxucunu həm duyğusal, həm də düşüncə baxımından təsirləndirən bütöv bir bədii mühit yaradır. Şair müxtəlif poemalarında sevgi və ayrılıq hisslərini, vətən dərdini, sosial ədalətsizliyi, tarixi sarsıntıları və insanın mənəvi mübarizəsini fərqli obrazlar, hadisələr və poetik simvollar vasitəsilə təqdim edir.

Müəllifin ümumilikdə on dörd poeması mövcuddur və bu əsərlər təkcə bədii mətn kimi deyil, həm də müəyyən dövrlərin ruhunu, insanların yaşadığı ağrıları və ümidlərini əks etdirən poetik yaddaş nümunələri kimi diqqəti cəlb edir. Hər bir poemada fərqli talelər, müxtəlif xarakterlər və bir-birindən ayrı, lakin ümumi mənəvi məkan daxilində birləşən hadisələr təqdim olunur.

Bu yarımfəsildə şairin müxtəlif dövrlərdə qələmə aldığı poemalar üzərində dayanılacaq, onların ideya-məzmun xüsusiyyətləri, obrazlar sistemi və bədii ifadə imkanları təhlil ediləcəkdir. Oxucu burada həm kənd həyatının acı reallıqlarını, həm tarixi ayrılıqların doğurduğu nisgili, həm də insan taleyinin poetik ifadəsini əks etdirən əsərlərlə tanış olacaq və müəllifin poema yaradıcılığının ümumi bədii mənzərəsini daha aydın şəkildə görə biləcəkdir.

E.Səfərlinin "Bir yalquzaq təkliyi" kitabına dörd poema daxildir ki, onlardan birincisi "İki çiçəyin dastanı" poemasıdır. Poemanın ön sözündə filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli qeyd etmişdir: *"Açığını deyim ki, mən onun "İki çiçəyin dastanı" poemasını çox bəyəndim, Elşadın bu poemadakı şairlik potensialı yetərincədir"[3, s.10]* Bununla yanaşı, tənqidçi bu poemanı ritm, ahəng harmoniyası, poetik gözəlliyinə və digər xüsusiyyətlərinə görə tanınmış mərhum şair Məstan Günərin çox sevilən "İlyana haqqında nəğmə" poeması ilə müqayisə oluna biləcəyini qeyd etmişdir.

Elşad Səfərlinin *"İki çiçəyin dastanı"* poemasında müəllif gənclik illərinə məxsus saf və səmimi duyğuları poetik şəkildə ifadə edir. Əsərdə Lalə və Bənövşə obrazları yalnız real şəxsləri deyil, eyni zamanda gənclik dövrünün romantik hisslərini, sevgi və duyğu saflığını simvolizə edən bədii obrazlar kimi təqdim olunur.

Gedəni yox idi deyim ki, göynən
Sevdiyim çiçək də elə ikiydi:
Adları qızların adıynan eynən –
Biri lalə idi,
Biri bənövşə. [3, s. 221]

Müəllif sevdiyi qız obrazlarını yalnız zahiri gözəllik baxımından deyil, həm də mənəvi keyfiyyətləri ilə səciyyələndirir. Lirik qəhrəman onların xarakterindəki səmimiyyət, sadəlik və həlimlik kimi xüsusiyyətləri xüsusi vurğulayaraq sevginin yalnız emosional deyil, mənəvi bağlılıq üzərində qurulduğunu göstərir. Beləliklə, əsərdə sevgi ötəri hiss kimi deyil, insanın daxili dünyasına təsir edən mənəvi dəyər kimi təqdim olunur.

Biri xasiyyətində həlim, mülayim,
Biri təbəssümdə üzü həmişə.
Yuxumu qaçıran,
Ruhu uçuran
Biri Lalə idi,
Biri Bənövşə. [3, s.222]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

Lirik qəhrəman sevgiyə macəra və ya ötəri hiss kimi yanaşmadığını, əksinə, bu duyğunu mənəvi məsuliyyət və səmimi bağlılıq kimi qəbul etdiyini göstərir. Müəllif bəzən zahirən fərqli təsir bağışlasa da, əslində keçici və yalançı münasibətlərin tərəfdarı olmadığını, belə sevgi bəsləyənləri isə "donjuanlıq" adlandırmışdır. Müəllif bu düşüncəsini klassik Azərbaycan poeziyasının böyük nümayəndəsi Füzulinin hikmətli fikirlərinə istinad etməklə daha da əsaslandırır.

Füzuli deyəndə: "Hər şəklə baxma",
"Hər gördüyünə də su kimi axma"-
Mən də hər surətə, şəklə baxmadım,
Hər gördüyümə də sutək axmadım... [3, s.223]

Füzulinin sevgi və mənəvi seçim haqqında söylədiyi müdrik sözlərə müraciət edən şair göstərir ki, o da hər rastlaşdığı gözəlliyə aludə olmur, hisslərini nəzarətsiz şəkildə yönəltmir. Beləliklə, müəllif öz sevgi anlayışını klassik poetik ənənə ilə əlaqələndirərək, duyğularının təsadüfi deyil, düşünülmüş və mənəvi seçimlər üzərində qurulduğunu göstərir.

Nəticədə, poemada sevgi hissi ötəri meyil kimi deyil, insanın daxili dünyasını formalaşdıran və onun mənəvi seçimlərini müəyyənləşdirən mühüm dəyər kimi təqdim olunur.

E.Səfərlinin kitaba daxil olan ikinci poeması isə "Qiymət" adlanır. Bu poema Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərova ithaf olunmuşdur. Poemada görkəmli mütəxəssisin peşə fəaliyyətində qarşılaşdığı haqsızlıqlar və ədalətsizlik halları bədii şəkildə canlandırılır. Əsərdə göstərilir ki, Şəddat Cəfərov uzun müddət "Azərbaycan" nəşriyyatının baş direktoru vəzifəsində çalışdığı halda, gözlənilmədən onun yerinə başqa şəxsin təyin olunacağı bildirilir. Məhz bu hadisə poemada təsvir olunan ədalətsizliklərin başlanğıcı kimi təqdim edilir və müəllif bu situasiya vasitəsilə cəmiyyət həyatında rast gəlinən haqsız idarəetmə qərarlarını tənqid obyektinə çevirir.

Çalışdı mətləbi anlasın Şəddat, —
Bu qədər haqsızlıq, görən, olarmı?
Özü baş direktor ola-ola bəs,
Təzə direktora ehtiyac varmı? [3, s.246]

Bu misralarda lirik situasiya qəhrəmanın yaşadığı mənəvi sarsıntını və haqsız qərar qarşısında keçirdiyi təəccüb və narahatlığı əks etdirir. Şəddat Cəfərov öz vəzifəsini layiqincə yerinə yetirdiyi halda, səbəbsiz şəkildə vəzifədən uzaqlaşdırılmasını anlaya bilmir və bu vəziyyət onda dərin ədalətsizlik hissi yaradır. Müəllif bu poetik suallar vasitəsilə yalnız bir şəxsin taleyini deyil, bütövlükdə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

cəmiyyətdə mövcud olan haqsız münasibətləri və əməyə verilən dəyərin bəzən düzgün qiymətləndirilməməsi problemini ön plana çıxarır. Beləliklə, poema fərdi hadisədən çıxış edərək daha geniş ictimai məna kəsb edir.

Poemada mənfi ictimai tip kimi təqdim olunan Kəlbi obrazı xüsusi yer tutur. O, Gərmətük kəndinə sovet sədri təyin olunduqdan sonra öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək kənd əhalisinə qarşı sərt və ədalətsiz münasibət göstərən bir idarəçi kimi təsvir olunur. Onun rəhbərliyə gəldiyi vaxtdan etibarən kənddə mövcud olan sakit və sabit mühit pozulur, insanlar daim qorxu və təzyiq altında yaşamağa məcbur olurlar. Poemada bu dəyişiklik kənd həyatının sevinc və rahatlıqdan uzaqlaşması kimi bədii şəkildə ifadə edilir:

Bu kəndə sovet sədri,
O, təyin ediləndən,
Elə bil şadlıq hissi,
Çəkilmişdı bu kənddən. [3,s. 249]

Poemada Kəlbinin xüsusilə varlı və nüfuzlu kənd sakinlərinə qarşı qərəzli münasibəti də təsvir olunur. Maddi imkanı olan insanları saxta ittihamlarla günahlandıraraq sürgün etdirməsi onun mənfi xarakterinin əsas cəhətlərindən biri kimi təqdim edilir. Bu haqsızlığın qurbanlarından biri də kənddə böyük hörmət sahibi olan Hüseyn kişi olur. O, yalnız var-dövləti ilə deyil, eyni zamanda ehtiyacı olan insanlara yardım etməsi və xeyirxah davranışı ilə tanınırdı.

Kasıba əl tutmuşdu,
Yoxsula acımışdı.
Bir sözlə: Hüseyn kişi,
Yaxşı ad qazanmışdı. [3, s.252]

Lakin məhz bu nüfuz və maddi imkanlar Kəlbidə paxıllıq və qısqanclıq hissi doğurur. Nəticədə, Hüseyn kişi əsassız şəkildə “kulak” damğası ilə ittiham olunur və oğlu Muğdadla birlikdə Sibirə sürgün edilir. Hadisələrin faciəvi tərəfi bununla da bitmir, Hüseyn kişinin evinin yandırılması isə baş verən haqsızlığın və qəddarlığın ən dramatik məqamı kimi təqdim olunur.

Beləliklə, poemada bu hadisələr vasitəsilə dövrün ictimai-siyasi ziddiyyətləri, insan talelərinə yönələn haqsız qərarlar və hakimiyyətdən sui-istifadə halları kəskin şəkildə tənqid olunur.

Elşad Səfərlinin kitabına daxil olan digər poeması isə *“Gərməütk balladası”* adlanır. *“Gərmətük balladası”* poemasında müəllif doğma kəndin təbiəti ilə yanaşı, burada yaşamış və xalq yaddaşında iz qoymuş şəxsiyyətlərin taleyinə də geniş yer verir. Bu baxımdan əsərdə Qızı Paşa Novruzovanın həyat yolu xüsusi diqqət çəkir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

Əsl adı Qızı olan bu qadının “Paşa” adı ilə tanınması tarixi hadisələrlə bağlıdır. 1918–1919-cu illərdə bölgədə baş verən hərbi-siyasi hadisələr zamanı türk zabiti Camal Paşanın qərargahı bir müddət adıçəkilən kənddə yerləşmiş və Qızı Novruzova həmin mühitdə fəallığı ilə seçilmişdir. Sonralar kənddə yaradılan qadın klubuna rəhbərlik etməsi onun ictimai nüfuzunu daha da artırmış və xalq arasında “Qızı Paşa” kimi tanınmasına səbəb olmuşdur.

Qızı Paşa demişkən –
İftixardan qürurlandım tez də mən.
Körpü atsaq yaddaşa biz dünəndən,
Bir qız Paşa –
Yeni Həcər görürük,
Gərmətük! [3, s.289-290]

Kasıb ailədə böyüyən Qızı Paşa gənc yaşlarından əmək fəaliyyəti ilə məşğul olmuş, həyatın çətinlikləri onun xarakterində möhkəmlik və dözüm formalaşdırmışdır. XX əsrin əvvəllərində qadınların ictimai fəaliyyətdə iştirakı məhdud olduğu bir dövrdə o, qadın hüquqları və sosial ədalət uğrunda mübarizədə fəal mövqe tutmuşdur.

Qızı Paşanın mübarizəsi bizə göstərir ki, cəmiyyətin dəyişməsi üçün fərdlərin fəallığı böyük rol oynayır. Qızı Paşa müasir gənclər üçün yalnız tarixi bir fiqur deyil, həm də ilham mənbəyidir. Bu gün də onun kimi qorxmadan haqqın və ədalətin yanında durmaq biz gənclərin əsas məqsədlərindən biri olmalıdır.

Elşad Səfərlinin yaradıcılığında lirik-fəlsəfi düşüncəni əks etdirən mühüm əsərlərdən biri də *“Ayrılıqlar vağzalı”* kitabına daxil edilmiş *“Mavi məsafə”* poemasıdır. Bu poema müəllifin fərdi duyğularla milli yaddaşı birləşdirən poetik düşüncəsinin məhsulu kimi diqqəti cəlb edir. Əsərdə ayrılıq, məsafə və vətən həsrəti kimi anlayışlar fəlsəfi məna çərçivəsində təqdim olunur və müəllif bu mövzuları geniş lirik ümumiləşdirmə ilə oxucuya çatdırır. Filologiya elmləri doktoru, professor Kamran Kazımov “Elşad Səfərli poeziyasının tədqiq və təhlil konteksti” adlı monoqrafiyasında bu poemaya xüsusi elmi-nəzəri mövqedən yanaşaraq qeyd etmişdir: *"Şairin "Mavi məsafə" poemasına qısa təhlili baxış keçirilmiş, Azərbaycan xalqının milli azadlıq, mənəvi birlik, vahidlik, Vətənin bütövlüyü idealları uğrunda mübarizə bu poemada özünüdərk və özünütəsdiq faktı kimi əsaslandırılmış, həmçinin əsərin sənətkarlıq xüsusiyyətlərinin bədii mətnin yüksek poetik, obrazlı ifadəsində rolu məsələsi həssaslıqla incələnmişdir"* [1, s.25].

Poemada məsafə və ayrılıq anlayışı müxtəlif ölçülərdə və fərqli məkan təsəvvürləri fonunda ümumiləşdirilir. Müəllif göstərir ki, ayrılıq yalnız böyük coğrafi məsafələrlə məhdudlaşmır; bəzən insanlar arasında mövcud olan kiçik fiziki uzaqlıq belə mənəvi baxımdan dərin ayrılıq hissi yarada bilir. Bu yanaşma ayrılığın yalnız

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

məkan anlayışı ilə deyil, insanın daxili dünyasında yaranan mənəvi uzaqlaşma ilə də bağlı olduğunu göstərir. Vaqif Yusifli poemanın "ön söz"ündə yazır: *"Elşad Səfərlinin bu kitabında sizə təqdim edilən "Mavi məsafə" lirik poeması, məncə, onun indiyə qədər qələmə aldığı - çap etdirdiyi poemalarından onunla fərqlənir ki, burada müəyyən bir hadisə, konkret obrazlar heç bir rol oynamır. Əsas məsələ lirik düşüncə arealını ön planda təqdim edib bir hadisəni deyil, hadisələr silsiləsini əks etdirməkdir"[5, s.11]*

Məsafə - ayrılıqdır,
Fərqi yox, oğlanla qız
Arasında məsafə -
Fərqi yox, yayla payız,
Ya da olsun qışla yaz
Arasında məsafə...

Daşla-daş arasında,
Quşla-quş arasında –
Lap ömrün yarısında
Yarla-yar arasında
Boşluq varsa,
məsafə
Demək var arasında. [5,s.191]

Poemada ayrılıq anlayışı tədricən fərdi münasibətlər çərçivəsindən çıxarılaraq milli miqyasda təqdim olunur. Müəllif müxtəlif obrazlı müqayisələr vasitəsilə ayrılığın miqyasını genişləndirir və nəticədə Araz çayı ilə ayrılan Azərbaycanın iki hissəsi arasında yaranmış tarixi və mənəvi məsafəni əsərin əsas ideya xəttinə çevirir. Bu kontekstdə məsafə yalnız coğrafi sərhəd deyil, xalqın yaddaşında və taleyində iz qoymuş milli ayrılığın simvolu kimi təqdim edilir.

Bütövlük sərhəddinə
Nədən yerləşə bilmir?
Güllüstandan bu yana,
Türkmənçaydan bu yana –
Vətən birləşə bilmir. [5, s.197-198]

Müəllif lirik düşüncə vasitəsilə fiziki uzaqlıqla mənəvi ayrılığı birləşdirərək oxucunu vətən, yaddaş və milli bütövlük haqqında düşünməyə sövq edir. Bu baxımdan poema müəllif yaradıcılığında fəlsəfi ümumiləşdirmə gücü ilə seçilən, fərdi duyğularla ictimai düşüncəni vəhdətdə təqdim edən əhəmiyyətli poetik nümunə kimi dəyərləndirilə bilər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

E.Səfərlinin *"Paralel dərd"* kitabına müəllifin *"Dərdli yazılan epopeya"* və *"Qəmli sentyabr"* poemaları daxil edilmişdir. Bu əsərlər şairin yaradıcılığında dərin mənəvi-psixoloji qatları ilə seçilir və insanın dərd, xatirə, zaman və taleyə baxışını poetik şəkildə ifadə edir.

Kitaba daxil olan *"Dərdli yazılan epopeya"* poemasını E.Səfərli dünyaca tanınmış rus şairi Sergey Yeseninə həsr etmişdir. Tənqidçi Vaqif Yusifli poema haqqında qeyd etmişdir: *"E.Səfərlinin bu əsəri poeziyamızda rus şairinə həsr olunan ilk töhfə, yeni söz kimi xüsusi poetik çəkiyə malik, əhəmiyyətli nümunədir"* [6, s.22]

*"Dərdli yazılan epopeya"* poeması müəllifin diqqət çəkən əsərlərindən biri kimi qiymətləndirilə bilər. Bu əsər eyni zamanda Elşad Səfərlinin dünya və rus ədəbiyyatını yaxından izlədiyini və həmin ədəbi mühitə bələd olduğunu nümayiş etdirir. Əsərdən aydın hiss olunur ki, müəllif şairin yaradıcılığını, həyat yolunu, şəxsiyyətini, Bakıda keçirdiyi illər ilə bağlı müxtəlif mənbələri diqqətlə araşdırmışdır. Bununla belə, əsərin əsas məziyyəti yalnız bioqrafik faktların təqdimatı deyil, müəllifin Yesenin poeziyası ilə mənəvi və poetik əlaqə qurmaq cəhdidir. Müəllif poemada Sergey Yesenin yaradıcılığı ilə öz poetik dünyası arasında müəyyən yaxınlıq və daxili bağlılıq axtarışına çıxır.

Hərdən Yesenintək yazmağım gəlir,
Haçan ki, incidir amansız həyat.
Haçan ki, üzümə qırışlar salır,
Bu yetim –
Atasız,
Anasız həyat! [6, s. 238 ]

Verilmiş misralarda müəllif lirik qəhrəmanın daxili psixoloji vəziyyətini Sergey Yeseninin poetik taleyi ilə əlaqələndirir. Şair həyatın sərtliyi və insanı mənəvi cəhətdən sarsıdan məqamlarla qarşılaşdığı anlarda Yesenin yaradıcılığına üz tutmaq istəyini ifadə edir. Burada Yesenin obrazı həyatın ağrı və ziddiyyətlərini poeziya vasitəsilə ifadə edən sənətkar simvolu kimi təqdim olunur.

Bakıdan da yazdı – sevdi Bakını,
Bağışladım ona donjuanlığı.
Bəlkə Mərdəkanda qazanmışdı o,
Qafqazlıya məxsus istiqanlığı. [6, s. 241]

Misralarda Yeseninin qadınlara qarşı münasibəti və sevgi macəraları *"donjuanlıq"* ifadəsi ilə ümumiləşdirilir, lakin müəllif bu xüsusiyyəti müəyyən mənada onun emosional və temperamentli xarakteri ilə əlaqələndirərək anlayışla

qarşılayır. Mərdəkana edilən işarə isə şairin Qafqaz mühitində qazandığı səmimiyyət, istilik və insanlara xas istiqanlı münasibətin onun xarakterinə təsir göstərməsi kimi təqdim olunur.

Yesenin...
Yesenin...
Tarixlər boyu
Bu ad qalacaq...
Sevən şairlərin ürəyində də,
Yesenin adında ustad qalacaq. [6, s.247]

Bu misralarda müəllif Sergey Yeseninin poeziya tarixində silinməz iz buraxan sənətkar kimi yadda qalacağını vurğulayır. Şairin adı yalnız müəyyən bir dövrün nümayəndəsi kimi deyil, zaman keçsə də aktuallığını qoruyan ədəbi şəxsiyyət kimi təqdim olunur.

Poema böyük şairin xatirəsinə ehtiram ifadəsi olmaqla yanaşı, müəllifin öz poetik düşüncələrinin və mənəvi axtarışlarının ifadəsinə çevrilir.

Kitaba daxil olan ikinci poema isə *"Qəmli sentyabr"* adlanır. Poema müəllif tərəfindən şəxsi kədərin və dərin mənəvi bağlılığın ifadəsi kimi təqdim olunur və əsər *"Həyatdan vaxtsız köçən anam Tuğranın əziz xatirəsinə ithaf edirəm"* sözləri ilə başlanır. Bu ithaf əsərin ideya-məzmun istiqamətini əvvəlcədən müəyyənləşdirərək poemada ana itkisi motivinin əsas emosional və fəlsəfi xətt kimi inkişaf edəcəyini göstərir. Kitabın Ön sözündə poeması haqqında filologiya elmlər doktoru, tənqidçi Vaqif Yusifli qeyd etmişdir: *"Mənim fikrimcə, Elşad Səfərlinin "Qəmli Sentyabr" poeması onun yaradıcılığının lirik zirvəsidir. Ana məhəbbətinə və ana itkisinə dair yüzlərlə şeir, poema həsr olunub. Elşad Səfərlinin bu poemasını da o sırada ən yaxşılarından biri hesab etmək olar. Xalq şairi Məmməd Arazın bir misrası yada düşür: "Ana itirmişəm ana yaşında". "Qəmli Sentyabr" da o itkinin – o ağrının adekvat deyil, yalnız Elşad Səfərliyə xas poetik təcəssümüdür" [6 , s.17].*

Poemada payız fəslinin kədər və hüzn rəmzi kimi təqdim olunması şairin şəxsi həyatında baş vermiş ağır itki – anasının vaxtsız vəfatı ilə əlaqələndirilir. Müəllif payızın solğun və nisgilli atmosferini daxili ağrının poetik ifadə vasitəsinə çevirərək fərdi kədəri ümumiləşdirilmiş insan taleyi səviyyəsinə yüksəldir.

....Anamın tez gəldi əcəl karvanı,
Tale ona qarşı amansız oldu.
Qəfil elə dərdə düçar oldu ki,
Əlacı dünyada dərmansız oldu. [6, s.261]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

Əsərdə vurğulanan əsas ideya ondan ibarətdir ki, həyatda bir çox dərdin müəyyən mənada təsəllisi və ya çıxış yolu tapılsa da, ana itkisi kimi mənəvi boşluğu doldurmaq mümkün olmur. Şair bu ağrını poetik obrazlar vasitəsilə ifadə edərək insanın faniliyi və həyatın müvəqqəti xarakter daşıdığı fikrini ön plana çəkir.

Doğmalar qeydimə qalsa da, ana,
Qədir-qiymətinin yerini vermir.
Min qayğı çəkənim olsa da, ana,
Sənin zəhmətinin yerini vermir. [6, s.273-274]

Poemada dünyanın keçiciliyi ideyası da mühüm yer tutur. Müəllif göstərir ki, zaman qarşısında hamı bərabərdir, dünya nə hökmdara, nə də sadə insana əbədi sədaqət göstərir.

Nə şah bilir, nə nökər,
Fərq bilməyən dünyadı.
Süleymana da vəfa
Eyləməyən dünyadı. [6, s.260]

Beləliklə, bu poema Elşad Səfərlinin yaradıcılığında yalnız şəxsi kədərin poetik ifadəsi deyil, eyni zamanda insan həyatının faniliyi, zamanın keçiciliyi və mənəvi dəyərlərin əhəmiyyətini əks etdirən lirik-fəlsəfi əsər kimi diqqəti cəlb edir. Poemada ana itkisi motivi vasitəsilə fərdi ağrı ümumbəşəri məna qazanır və oxucunu həyatın müvəqqəti mahiyyəti haqqında düşünməyə sövq edir. Bu xüsusiyyətlər əsərin müəllif yaradıcılığında mühüm yer tutduğunu və ideya-məzmun baxımından xüsusi əhəmiyyət kəsb etdiyini göstərir.

Bu yarımfəsildə təhlil olunan poemalar Elşad Səfərlinin poetik yaradıcılığında poema janrının nə qədər mühüm yer tutduğunu bir daha göstərir. Müəllif bu janr vasitəsilə həm fərdi insan talelərini, həm də bütöv bir cəmiyyətin yaşadığı sosial, tarixi və mənəvi sarsıntıları bədii ümumiləşdirmə səviyyəsinə qaldıra bilmişdir. Onun poemalarında hadisə və obrazlar yalnız bədii təsvir elementi kimi deyil, eyni zamanda müəyyən bir dövrün, ictimai mühitin və insan psixologiyasının ifadə vasitəsi kimi çıxış edir.

Şairin poema yaradıcılığında janr xüsusiyyəti baxımından lirizm ilə epik təsvirin sintezi açıq şəkildə hiss olunur. Hadisələr bəzən konkret talelər üzərində qurulsa da, müəllifin əsas məqsədi yalnız hadisəni danışmaq deyil, həmin hadisənin doğurduğu mənəvi ağrını, insan daxilində yaranan psixoloji gərginliyi və sosial ədalətsizliyin təsirini oxucuya çatdırmaqdır. Bu baxımdan onun poemalarında daxili monoloqlar, lirik düşüncə axını, simvolik detallar və emosional gərginlik xüsusi yer tutur.

Üslub xüsusiyyətlərinə nəzər saldıqda görünür ki, müəllif sadə, lakin emosional yükü güclü olan ifadə vasitələrinə üstünlük verir. Xalq danışıq dilinə yaxın poetik ifadələr, folklor motivlərinə söykənən bədii elementlər, kənd həyatının canlı təsvirləri və real insan taleləri onun poetikasını oxucuya daha yaxın və inandırıcı edir. Təbiət təsvirləri də poemalarda yalnız fon rolu oynamır, əksinə, insanın daxili aləmini əks etdirən simvolik vasitəyə çevrilir.

Şairin sənətkarlıq xüsusiyyətlərindən biri də obraz yaratmaq bacarığıdır. Onun poemalarında təqdim olunan qəhrəmanlar idealizə olunmuş obrazlar deyil; onlar real həyatın içindən çıxan, sevinci, ağrısı, səhvi və mübarizəsi ilə yaşayan insanlardır. Bu isə əsərlərə həyati inandırıcılıq və emosional təsir gücü qazandırır. Müəllif həm fərdi insan faciəsini, həm də ictimai hadisələrin doğurduğu ümumi dərdi poetik ümumiləşdirmə səviyyəsinə qaldıra bilir.

Nəticə etibarilə, araşdırılan poemalar göstərir ki, Elşad Səfərli poema janrından yalnız bədii ifadə vasitəsi kimi deyil, həm də milli yaddaşı, insan talelərini və zamanın ağrılarını qoruyub saxlayan poetik platforma kimi istifadə edir. Onun poemaları oxucunu yalnız hadisələrlə tanış etmir, həm də düşünməyə, yaşananlara yenidən baxmağa və insan taleyinin dəyərini dərk etməyə sövq edir. Bu baxımdan şairin poema yaradıcılığı müasir Azərbaycan poeziyasında diqqətəlayiq sənət nümunələri kimi dəyərləndirilə bilər.

## Ədəbiyyat siyahısı

1. Kazımov K. Elşad Səfərli poeziyasının tədqiq və təhlil konteksti. Monoqrafiya. “Qanun” nəşriyyatı, Bakı, 2025, 392 s.
2. Səfərli E. İki çiçəyin dastanı. Şeirlər və poemalar. Bakı, "Gənclik" nəşriyyatı, 2020, 358 s.
3. Səfərli E. Bir yalquzaq təkliyi. Şeirlər və poemalar. Bakı, "Gənclik" nəşriyyatı, 2022, 346 s.
4. Səfərli E. Qiymət. Poema. Bakı, "Gənclik" nəşriyyatı 2022, 72 s.
5. Səfərli E. Ayrılıqlar vağzalı. Şeirlər və poemalar, Bakı, Gənclik nəşriyyatı, 2023, 248 s.
6. Səfərli E. Paralel dərd. Şeirlər və poemalar. Bakı, "Qanun" nəşriyyatı, 2024, 288s.

**Zahra Heydarova Suleyman**

## IDEOLOGICAL AND THEMATIC ISSUES OF ELSHAD SAFARLI’S POEMS

The article examines the ideological and thematic issues in the poetic works of Elshad Safarli. The study analyzes the poems written by the author in different periods and identifies their main ideological directions. The leading themes in these works include love for the homeland, national separation, historical memory, social

injustice, human destiny, moral and psychological tension, and social upheavals shaped by time.

The research demonstrates that within the genre of the poem, the author organically combines lyricism with elements of epic narration, presenting individual destinies in unity with national and social problems. The concepts of separation and distance function not only as expressions of personal feelings but also as artistic symbols of historical and national tragedies. Natural motifs, symbolic images, and emotional intensity serve as significant components of the poetic structure.

As a result, Elshad Safarli's poems occupy an important place in modern Azerbaijani poetry due to their ideological richness, genre synthesis, and artistic mastery, and can be regarded as one of the main indicators of the author's creative direction.

**Keywords:** *poem, love for the homeland, national separation, historical memory, human destiny, distance, Sergey Yesenin*.

**Захра Гейдарова Сулейман**

## ИДЕЙНО-ТЕМАТИЧЕСКИЕ ПРОБЛЕМЫ ПОЭМ ЭЛЬШАДА САФАРЛИ

В статье исследуются идейно-тематические проблемы поэмного творчества Эльшада Сафарли. В ходе исследования были проанализированы поэмы автора, созданные в разные периоды, и определены их основные идейные направления. В произведениях выделяются такие ведущие темы, как любовь к Родине, национальное разделение, историческая память, социальная несправедливость, судьба человека, духовно-психологическое напряжение и общественные потрясения, обусловленные временем.

Исследование показывает, что автор органично сочетает лиризм и элементы эпического изображения в жанре поэмы, представляя индивидуальные судьбы в единстве с общенациональными и социальными проблемами. Понятия разлуки и дистанции рассматриваются не только как выражение личных чувств, но и как художественный символ историко-национальных трагедий. Природные мотивы, символические образы и эмоциональная напряженность выступают важными компонентами поэтической структуры.

В результате поэмы Эльшада Сафарли занимают значимое место в современной азербайджанской поэзии благодаря идейному богатству, жанровому синтезу и художественному мастерству и могут рассматриваться как один из основных показателей творческого направления автора.

**Ключевые слова:** *поэма, любовь к Родине, национальное разделение, историческая память, судьба человека, дистанция, Sergey Yesenin.*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 371-381*

**Rəyçi: Prof. dr. Kamran Kazımov**